# Stokholmda Azərbaycanın yaddaqalan təqdimatı



**İsveçin paytaxtı Stokholmun mərkəzində yerləşən məşhur və sevilən məkanlardan birində Azərbaycanın mədəniyyətinə, incəsənətinə, müstəqillik əldə etdikdən sonra qazandığı uğurlara həsr edilmiş möhtəşəm və məzmunlu təqdimat mərasimi keçirilib. Tədbir İsveç-Azərbaycan Mədəniyyət Cəmiyyətinin (SAF) sədri Sevda Dadaşova tərəfindən təşkil olunub. Qonaqlar arasında müxtəlif təşkilatların nümayəndələri ilə yanaşı, ABŞ-nin "Rotary" cəmiyyətinin üzvləri də yer alıb.**

Təqdimat zamanı Azərbaycanın zəngin tarixi, coğrafiyası, mədəniyyəti, kulinariyası və idman nailiyyətlərini əks etdirən videomateriallar nümayiş etdirilib.

Sevda Dadaşova iştirakçılara 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi haqqında ətraflı məlumat verib. O qeyd edib ki, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olunub və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. O, avqustun 8-də Vaşinqtonda keçirilən tarixi üçtərəfli görüşü Cənubi Qafqazın gələcək taleyi baxımından mühüm dönüş nöqtəsi kimi qiymətləndirib. Bildirib ki, Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampın təşəbbüsü və vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən bu görüş uzun illər davam edən Ermənistan-Azərbaycan münaqişəsinin yekun həllinə dair siyasi iradənin nümayiş etdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Görüşün nəticəsi olaraq tərəflər diplomatik münasibətlərin bərpası, ərazi bütövlüyünün qarşılıqlı tanınması və hörmət prinsipləri əsasında əməkdaşlığın inkişaf etdirilməsi barədə razılığa gəliblər. Bu addım bölgədə sabitliyin və davamlı sülhün təmin olunması baxımından tarixi hadisədir.

SAF-ın sədri diqqətə çatdırıb ki, 1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olmaqla yanaşı, xalqımızın tarixində mühüm bir hadisə idi. Belə ki, əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımız, nəhayət, öz müstəqil dövlətinə sahib oldu. Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ildə qəbul etdiyi İstiqlal Bəyannaməsi ilə bərabərhüquqluluq prinsipinin, seçmək və seçilmək hüququnun təsbiti ilə yanaşı, həm də Şərqdə ilk dəfə qadına səsvermə imkanı vermiş oldu. Müqayisə üçün xatırlatmaq yerinə düşərdi ki, ABŞ-də qadınlara ilk dəfə 1920-ci ildə seçmək hüququ verilib. İndi Avropanın qabaqcıl ölkələrindən sayılan Fransada qadınların səsvermə hüququ yalnız 1944-cü ildə, İsveçrədə isə 1971-ci ildə qəbul edilib...

O, həmçinin İsveç ilə Azərbaycan arasında tarixi bağlara da diqqət çəkib: "Azərbaycan-İsveç əlaqələrinin böyük tarixi var. Nobel qardaşlarının ölkəmizdəki fəaliyyəti iki xalqın dostluq münasibətlərinin daha da möhkəmlənməsinə səbəb olaraq gələcək nəsillərə örnək qismində xidmət edir".

Sonra Sevda Dadaşova qonaqların çoxsaylı suallarını cavablandırıb.

Azərbaycan.- 2025.- 3 sentyabr, №186.- S.11.